varmı? Sabahkı “fərdi” və “kollektiv” iş tapşırıqları bugünkü anlayışlarımızdan nə ilə fərqlənəcəkdir?

Düşünürəm ki, Azərbaycanda səriştə əsaslı təhsilin məzmununun yaradılmasını təmin edəcək elmi-pedaqoji potensial var. Əsas məqsəd bu potensialdan səmərəli istifadənin yollarını tapmaqdan, onların intellektual əməyinin stimullaşdırılmasını və motivasiyasını təmin etməkdən ibarətdir.

***Ədəbiyyat:***


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2018.
2. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikasının Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmişdir.
3. “Təhsil haqqında” Azərbaycan Respubliaksının Qanunu. Bakı, 2009.


## DÖVLƏT QULLUĞUNDA ETİK DƏYƏRLƏR VƏ PRİNSİPLƏR


*Cəfərov Kamal Rəhman oğlu,*
*İsmayılova İlahə Aqil qızı*
*Elmi rəhbər: Məmmədov Saqib Yaşar oğlu*
*“Sənayenin təşkili və idarəetmə” kafedrasının müəllimi*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan Respublikası*


Müasir inkişaf səviyyəsinə çatmaq və bu inkişafı davam etdirmək istəyən hər bir cəmiyyətdə bu mənafeyə xidmət edən qurum və təşkilatların yaradılması, göstərilən xidmət və fəaliyyətin artırılması, bu xidmət və fəaliyyətlərin təsiredici şəkildə göstərilməsi və istifadəsi zəruridir. Məhz bu nöqtədə "etika" və "idarəetmə etikası" anlayışları özünü daha çox göstərməkdədir. Təsirli idarəetmə yalnız ümumbəşəri qəbul olunan dəyərlərə söykənən prisiplər üzərindən aparılmaqla mümkündür.

Etika dedikdə, insan davranışının əsası olan əxlaq prinsiplərinin məcmusu başa düşülür. Başqa sözlə, etika “nəyi necə etməli olduqlarını” müəyyən etmələri üçün insanlara yol göstərəcək dəyərlər, prinsiplər və standartlardır (əsaslardır). Etika eyni zamanda bir prosesdir.

Etika sözü yunan mənşəli olmaqla “ədəb”, “ənənə” və “adət” mənasını verir. Etika dedikdə, insan davranışının əsası olan əxlaq prinsiplərinin məcmusu başa düşülür. Başqa sözlə, etika “nəyi necə etməli olduqlarını” müəyyən etmələri üçün insanlara yol göstərəcək dəyərlər, prinsiplər və standartlardır (əsaslardır). Etika eyni zamanda bir prosesdir. Həmin proses ərzində görülən işlər və verilən qərarlar müəyyən dəyərlərə söykənməlidir.

Dövlət qulluqçuları cəmiyyətin maraqlarını şəxsi və yaxud qrup maraqlarından üstün tutmalı və xidməti vəzifələrini həyata keçirərkən aşağıdakı məqsədləri güdməlidirlər:

- xalqın rifahını yaxşılaşdırmaq;
- cəmiyyətin tələbatlarının mümkün qədər tez bir zamanda və effektiv olaraq ödəmək;

- xidmətlərin keyfiyyətinin artırmaq;
- vətəndaş məmnuniyyətinin təmin etmək;
- dövlət qulluğuna, dövlət orqanına və dövlət qulluqçularına etimadı yüksəltmək.

Bu məqsədlərə çatmaqda 31 may 2007-ci il tarixdə qəbul olunmuş "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş etik qaydalar və prinsiplər mühüm əhəmiyyət kəsb edir. Dövlət qulluqçusu xidməti vəzifələrini həyata keçirərkən həmin prinsipləri əsas tutmalıdır. Dövlət qulluqçusunun iş fəaliyyəti zamanı həmin prinsiplərə əməl etməsi və yuxarıda qeyd olunan məqsədlər üzrə ehtiyacların öyrənilməsi ilə əlaqədar sorğuların keçirilməsi, xidmətin hansı səviyyədə aparılmasının araşdırılması, ödənilməmiş ehtiyacların daima qiymətləndirilməsi, bu sahədə olan təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və təkmilləşdirilməsi üzrə iş aparılmalıdır. Nümunə kimi qeyd edək ki, dövlət orqanlarının göstərdikləri xidmətlərdən istifadə etmək üçün həmin orqanlara müraciət edən vətəndaşlar çox zaman hansı sənədlərin tələb olunduğunu, hara müraciət etməli olduqlarını, müraciətlərinə hansı müddətdə baxılacağını və müraciətlərində qaldırdıqları məsələnin hansı müddətdə həll olunacağını bilmirlər. Bu cür hallarda vətəndaşlarda işlərinin daha tez və problemsiz həlli üçün dostdan, tanışdan, qohumdan kömək istəmək ehtiyacı yaranır və vətəndaş ona yardım göstərəcək şəxsə müraciət edir ya da vasitəçi axtarır. Etikadan kənar davranışa zəmin yaradan bu cür halların qarşısının alınması üçün göstərilən xidmətlər, həmin xidmətlər üzrə tələb olunan sənədlər və müddətlər müəyyən edilərək dövlət orqanının inzibati binasında lövhədə yerləşdirilməli, internet, riflet, broşür və digər istiqamətverici vasitələrlə əhaliyə çatdırılmalı və göstərilən xidmətlər etik standartlara uyğun olaraq həyata keçirilməlidir. Xidmət müddəti ərzində göstərilən fəaliyyətlə bağlı vətəndaşların kifayət qədər məlumatlandırılması xidmət standartlarının və müddətlərin əvvəlcədən müəyyən edilməsi qədər önəmlidir. Vətəndaşlar çox zaman yazı və nəşrlərlə maarifləndirilmələrinə baxmayaraq, vəzifəli şəxsdən məlumat almağa meyl göstərirlər. Bu zaman dövlət orqanlarında bilavasitə vətəndaşların qəbulunu həyata keçirən vəzifəli şəxslər xüsusi əhəmiyyət daşıyırlar. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş əsas etik davranış qaydaları və prinsipləri aşağıda göstərilmişdir.

Vicdanlılıq. Bu prinsip dövlət qulluqçularından öz vəzifə borcunu səmərəliyerinə yetirməyi tələb edir. Burada məqsəd şəxsin, cəmiyyətin və dövlətin maraqlarının təmin olunmasından ibarətdir. Dövlət qulluqçusu bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.

Loyallıq. Dövlət qulluqçusu onun xidməti vəzifəsinə aid olmadığı hallarda, dövlət orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Bu qayda dövlət qulluqçusunun elmi pedaqoji fəaliyyəti ilə bağlı çıxışlarına və ya elmi yazılarına şamil olunmur. Dövlət qulluqçusu dövlət qulluğu ilə bağlı vəzifələrin icrası iləbir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

İctimai etimad. Dövlət qulluqçusu  Azərbaycan Respublikasının, dövlət orqanınınvə dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa borcludur. Dövlət qulluqçusu etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur. Dövlət qulluqçusu dövlət orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandıran kütləvi informasiya vasitələri nümayəndələrinin qanunla müəyyən edilmiş hallarda və qaydada doğru (dürüst) məlumatlar almasına köməklik göstərməlidir.

Mədəni  davranış. Dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. Dövlət qulluqçuları dövlət qulluğunun bir əmanət olması düşüncəsi və xalqa xidmətin hər cür mənfəətdən üstün bir vəzifə olması düşüncəsi ilə xalqa zövqlə xidmət göstərməli, iş yoldaşlarına və vətəndaşlara münasibətədə nəzakətli, hörmətcil və gülərüzlü olmalıdır. Rəhbər dövlət qulluqçuları qanunun tələblərinə uyğun hərəkət etməli, tabeçiliyində olan dövlət qulluqçularına və vətəndaşlara qarşı təzyiq, təhqir və təhdidedici münasibə göstərməməlidir.

Qərəzsizlik. Dövlət qulluqçusu xidməti vəzifəsini yerinə yetirərkən və ya  qərar qəbul edərkən qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, dinə münasibətinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməməlidir.

Korrupsiyanın qarşısının alınması. Dövlət qulluqçusuna qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, dövlət qulluqçusu onlardan imtina etməlidir. Maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər dövlət qulluqçusuna ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli və maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanına akt üzrə təhvil verilməlidir.

Proseslərin qanunvericiliyə uyğun həyata keçirilməsində nəzarət amili vacib rol oynayır. Ölkəmizdə dövlət qulluqçularının fəaliyyətinə nəzarət etmək üçün ikili mexanizm mövcuddur. İlk növbədə dövlət qulluqçularının etik davranış qaydalarına xidməti qaydada çalışdığı dövlət orqanının rəhbəri, tabeçilik əsasında isə yuxarı orqan nəzarət edir.

Dövlət orqanının rəhbəri bu nəzarəti rəhbərlik etdiyi orqanın  müvafiq qurumları  vasitəsilə həyata keçirir. Bu qurumlar bir qayda olaraq etik məsələlər üzrə məsul şəxs – etik müvəkkil, dövlət orqanının kadr qurumu və ya daxili nəzarət qurumu olur. Qanunvericiliyə əsasən dövlət orqanı  rəhbərinin etik nəzarətlə bağlı aşağıdakı  funksiyaları var:

- tabeliyində olan dövlət qulluqçularının  xidməti  davranışlarının müvafiq qanunla  müəyyən  olunan  etik  davranışqaydalarına uyğunluğuna nəzarət etməli və onun təhlilini aparmalıdır;
- öz davranışı ilə etik davranış qaydalarına əməl olunması nümunəsi göstərməlidir;

***Ədəbiyyat:***

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2018.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, 2014.
3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001
4. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasinin Qanunu. Bakı, 2001.
5. "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

## UĞURLU KARYERADA KEYFIYYƏTLI TƏHSILIN ROLU

*Əliyev Kamran*
*Elmi rəhbər:Nuranə Abbasova -Zeynalova*
*Mingəçevir Dövlət Universiteti (Azərbaycan)*

Hər bir ölkənin sosial-iqtisadi inkişafı həmin ölkədə insan kapitalının inkişaf səviyyəsindən asılıdır. Son dövrdə dünya iqtisadiyyatında müşahidə olunan texnoloji dəyişikliklər şəraitində rəqəmsal bacarıqlara malik, yeni texnologiyaları aktiv tətbiq edə bilən, gələcək illərdə dünyada artan rəqabətə hazır olan yüksəkixtisaslı insan kapitalının formalaşdırılması xüsusi aktuallıq kəsb edir.

Təhsildə keyfiyyət dedikdə beynəlxalq səviyyədə keyfiyyət göstəricilərinin təhsil sferasında əks etdirilməsi anlaşılır. Təhsilin inkişafı və iqtisadiyyatın qloballaşması dünya səviyyəsində təhsilin önəminin artmasına səbəb olmuşdur. Bu dəyişiklik ölkələri rəqabətə davamlı bir təhsil sistemi yaratmaq və beynəlxalq səviyyədə qəbul edilən təhsil standartları qəbul etməyə məcbur etmişdir. Əksər ölkələrdə keyfiyyətə zəmanət mexanizmlərinin inkişafı üçün müəyyən qurumlar yaradılmışdır. Təhsilin keyfiyyəti bir universitet sistemində akademik həyatın bir hissəsini təşkil edən bütün funksiyaları və fəaliyyətləri əhatə edən bir konsepsiyadır.

Təhsil sistemi hazırda bir çox inkişaf etmiş ölkələrin təhsil sistemi ilə rəqabətə girə bilmək imkanlarına malik olmasına baxmayaraq, işin keyfiyyətini, rəqabətə davamlılığını daha da artırmaq üçün dövlətin təhsil siyasəti cəmiyyət tərəfindən geniş dəstəklənməli, təhsilin inkişafı və keyfiyyət göstəricilərinin yüksəlməsi üçün lazımi resurslar ayrılmalı, onlardan effetkiv istifadənin mexanizmi yaradılması, təhsil sistemi hərtərəfli modernləşdirilməlidir.

Azərbaycanda təhsilinin keyfiyyətli olub-olmaması həmişə aktual mövzulardan sayılıb. Çünki həm dövlətin, həm cəmiyyətin, həm də təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Elə bu səbəbdəndir ki, təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır.

Müasir dünyamızda təhsil sürətlə dəyişən, yeni inkişaf tendensiyaları ilə zəngin sahələrdəndir. Təhsil sahəsində inkişafa nail olmaqdan ötrü bu tendensiyaların davamlı izlənməsi, çevik addımların atılması çox vacibdir. Azərbaycan Prezidenti də təhsillə bağlı dünyada gedən müsbət tendensiyalara daim fikir verilməsini vacib sayır. İnkişaf etmiş ölkələrdə aparılan islahatların dərindən təhlil olunmasını, uyğun təcrübələrin Azərbaycanda tətbiqini mühüm vəzifə kimi qarşıya qoyur.